KAMRAN İMANOV

MƏDƏNİYYƏTİN RƏQƏMSALLAŞMASI VƏ RƏQƏMLİ COPYRİGHT DAYANIQLI İNKİŞAFDA

Bakı – 2015

Kamran İmanov

Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri

Mədəniyyətin rəqəmsallaşması və rəqəmli copyright dayanıqlı inkişafda. Bakı, 2016

Bu kitabça Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanovun Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin, YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin birgə təşkilatçılığı ilə 7-9 iyul 2014-cü il tarixlərində keçirilən "Davamlı inkişaf mədəniyyəti: universal və milli dəyərlərin qarşılıqlı əlaqəsi" mövzusunda IV Beynəlxalq elmi konfransda etdiyi “Mədəniyyətin rəqəmsallaşması və rəqəmli copyright dayanıqlı inkişafda” adlı prezentasiya əsasında hazırlanmışdır.

© Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi 2016

Mündəricat

	Giriş ….....	5
I.	Mədəniyyətin rəqəmləşdirilməsinin (digitisation) metodoloji aspekti (mədəniyyətin rəqəmlə təsvirinin səbəb və nəticələri)	16
II.	Müasir müəlliflik hüququ rəqəmli mühitdə	18
III.	Müasir müəlliflik hüququ rəqəmli mühitdə	20
IV.	Rəqəmli Copyright-a aid praktiki tənzimləmə modelləri və Azərbaycan təcrübəsi	21
V.	İmplementasiya	23

Giriş

1. “**Sustainable” = “dayanıqlı” = «устойчивое» [development] – “həyata dəstək verən” deməkdir.**

BMT-nin Beynəlxalq Komissiyasının «dayanıqlı inkişaf» haqqında şüarı: «Bu günün ehtiyaclarının ödənilməsi gələcək nəsillərinin ehtiyaclarının ödənilməsinə xələl gətirməməlidir».

Belə mədəniyyətin formalaşması - əsas hədəfdir.

- ✓ Mədəniyyət – insanlar tərəfindən yaradılan maddi və mənəvi dəyərlərinin adi külliyyatı deyil, bu sıraya cəmiyyətin qorunub saxlanmasını və gələcək inkişafını təmin edən mədəniyyətdən irəli gələn imkanlar da daxil edilməlidir.
- ✓ Mədəniyyət nə təbii məhsul, nə də süni törəmədir. Bəşəriyyət insanların «əməkdaşlığı vasitəsilə yaranıb və özünü qoruyub saxlayıb. Burada evolyusion seçim nəticəsində yaranan ənənəvi və mənəvi təcrübələr və insanların bunlara riayət etməsi mədəniyyəti yaradıb» (F. fon Xayek).

Bir sözlə, «mədəniyyətin evolyusiyası instinkt və zəka arasında yerləşir, mədəniyyət nə insan zəkasının məhsuludur, nə də mədəniyyət zəkanı yaradıb» (F. fon Xayek).

- ✓ [«Mədəni, mənəvi qaydalara əməl edənlər bəşəriyyəti yaşadıblar» - aktual!].

2. **Dəyərlərin mədəniyyətdəki xüsusi rolu.**

- ➢ Ümumbəşəri və milli dəyərlər arasındakı asılılıq: millilikdə ümumbəşəri məzmun və ümumbəşərilikdə milli tərtiblik.
- ➢ Milli ruhun ümumbəşəri dəyərləri, milli dəyərlə və dəyərlərə istiqamətlənmiş şüur yalnız psixo-

emosional fenomen deyil: buraya maddi obyektlər, simvollar, işarələr və s. daxildir.

- Mədəniyyətlərarası dialoq: mədəniyyətin milli dəyərlər – maraq və başlanğıcı, ümumbəşəri dəyərlər – prioriteti və zəruriliyi.
- Dialoq – mədəniyyətlərin birləşməsi və ya qarışması deyil, hər mədəniyyət öz vahidliyini və açıq bütövlüyünü saxlayaraq qarşılıqlı zənginləşirlər: koalisiyalı oyun.

3. **Mədəni irs dəyərlərin vacib hissəsidir və dayanıqlı inkişafın resursudur.**



Azərbaycan qanunvericiliyi və UNESCO-nun
"Folklorun qorunub-saxlanılmasına aid" Tövsiyyələrindən



- **Söz nümunələri:** xalq, aşıq poeziyası, dastanlar, rəvayətlər, bayatılar, nağıllar, lətifələr, atalar sözləri və s.
- **Musiqi nümunələri:** muğamat, xalq mahnıları, instrumental musiqi və s.
- **Hərəkət nümunələri:** xalq rəqsləri, yallılar, oyunlar və s.
- **Xalq sənətkarlığı və tətbiqi sənət:** sənət-şəkillər, rəsmlər, qədim xalçalar, döymə və oyma işləri, heykəltəraşlıq, mis işləri, naxışlar, musiqi alətləri, memarlıq işləri və s.

Ənənələr və genetik resurslar (canlı təbiət və insan resursları)

Qorunub-saxlanma nə deməkdir? (UNESCO, "Qeyri-maddi mədəni irsin qorunub saxlanması" Konvensiyası, 2003-cü il).

Hüquqi qorunma nə deməkdir?



Beynəlxalq miqyasda ənənəvi-mədəni nümunələr (folklor) və ənənəvi biliklər nə cür qorunur?

- Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası (1886, Parıs aktı 1971, Maddə 15 (4)).
- Folklor nümunələrinin qorunması, ənənəvi biliklərin qorunması haqqında Beynəlxalq Sazişlər (WIPO-UNESCO, müzakirə edilir).
- "Qeyri-maddi mədəni irsin qorunub-saxlanması haqqında" Konvensiya (UNESCO, 2004).

“Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında” Qanun (04.08.2003).



Azərbaycan ərazisində ənənəvi və adi kontekstdə istifadə sərbəstdir (o cümlədən, kommersiya məqsədilə).



Qeyri-ənənəvi və adi olmayan istifadə müəyyən məhdudiyyətlərlə həyata keçirilir [hər hansı istifadə forması zamanı təbii mahiyyət və məzmununa xələl gətirməməklə məqsədi, təyinatı və bədii forması dəyişdirilə bilər. Maddə 6].

4. **Əsas nəticələr**

- Millətlərarası dialoqun və mədəni dəyərlərin müzakirə edilməsi hər bir tərəf üçün faydalı olduğundan ondan daha geniş istifadə və

ümumbəşəri dəyərlər sisteminin formalaşması qloballaşma tempindən geriyə qalmamalıdır.

- Qloballaşma yalnız dar seqmentlərin standartlaşmasına qadirdir və bu şəraitdə milli dövlətin, milli dəyərlərin əhəmiyyəti artır.
- Milli dəyərlər sistemində millilik humanizm və demokratiya fenomenlərinin antipodu kimi çıxış etməməli.
- Mədəni irs və mədəni ənənələr milli dəyərlər çərçivəsində flora, fauna, faydalı qazıntılar kimi təbii yolla yaranır, tarixi prosesin gedişi isə onları ən dəyərli milli varidata və ən mühüm resursa çevirir.
- Mədəni ənənələr və mədəni irs istər mədəniyyətin dayanıqlı inkişaf resursu, istərsə də iqtisadi, ərazi inkişaf resursudur və onlar qorunmalıdır.
- Mədəni irs və ənənələr keçmişin tərəqqisidir, bu günün tərəqqisi isə sabahın mədəni irsinə və ənənələrinə çevriləcək.
- Mədəni irs və ənənələrin qorunmasının təşkili əqli mülkiyyət qanunvericiliyi əsasında həyata keçirilir.
- Mədəni irsin qorunmasının səmərəliyi dayanıqlı inkişaf mədəniyyətinin formalaşmasının mühüm alətidir və bir sıra göstəricilər vasitəsilə aydınlaşdırılır, o cümlədən «kreativ iqtisadiyyatın» inkişafı ilə.
- «Kreativ sənaye» inkişafı BMT-nin tövsiyələrinə əsasən, dayanıqlı iqtisadiyyatın ən vacib vasitəsidir.



Mənbə: *UNCTAD, UNDP, UNESCO, ÜƏMT və TM "Kreativ iqtisadiyyat" Hesabatı (2010)*

Kreativ iqtisadiyyatın ölkə ÜDM-dəki payı





Kreativ iqtisadiyyatın strukturu

Mənbə: *Agentlik və ÜƏMT*

ÜƏMT-nin 32 ölkə üzrə orta göstəriciləri



Azərbaycan üzrə (2011)



Kreativ iqtisadiyyatda əsas müəlliflik hüququnun sahələr üzrə paylanması





5. **Mədəni irs və rəqəmsallaşma.**

- ❖ Qloballaşan dünyada informasiya və İKT paradokslarının biri: daha çox fayda «güclü» mədəniyyətlər əldə edirlər, o cümlədən, daha informasiya cəhətdən silahlanmış mədəniyyətlər (bax: J.Eykerlof, M.Spens və J.Ştiqlis, Nobel mükafatı, «bazarın görünməz əli» = informasiya silahlanması).
- ❖ Qloballaşma və İKT yalnız məlumata əlçatma, saxlama, emal və təqdim etməsinin növlərini dəyişmir, üstəlik biliklərin özlərinə, onların translyasiyası və istifadəsinə toxunur.
- ❖ Mədəni irsin rəqəmsallaşması (virtuallaşması) → «hard» (maddi prototip) və «soft» (informasiyalı ikili-əkizi).

Süal: texnoloji və iqtisadi qloballaşma, istər mədəni irs obyektlərinə münasibətdə (abidə, tarixi yerlər və s.), istərsə də onların daşıyıcılarına (dil, folklor və s.) münasibətdə müasir dünyanı nə dərəcədə homogen edə,

milli, tarixi müxtəlifliyi aradan qaldıra, varislik, miras yaddaşı cilovlaya bilər? (Babilon qülləsi mümkündürmü?)

- Rəqəmli inqilab: dünya mədəniyyətini standartlaşdırır, yoxsa milli mədəniyyətin əlavə imkanlarını yaradır?
- Rəqəmli inqilab: mədəni irsin qorunması konsepsiyalarının yenidən işlənməsini tələb edirmi və mədəni irsin rəqəmsallaşmasında hansı amilləri nəzərə almaq vacibdir?
- Bu prezentasiya mədəniyyətin rəqəmləşdirilməsi, mədəni obyektin kontentə çevrilməsi rəqəmli qeyri-maddi mədəni irs və rəqəmsal hüquqlar problemindən irəli gəlir.
- Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə kitabxanalarda və arxivlərdə qorunub saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər ƏM nümunələrinin mərkəzləşdirilmiş şəkildə rəqəmləşdirilməsi, mühafizəsi, hüquqi qorunması və beynəlxalq mübadiləsinin təşkili.



I. Mədəniyyətin rəqəmləşdirilməsinin (digitisation) metodoloji aspekti (mədəniyyətin rəqəmlə təsvirinin səbəb və nəticələri)

Bu hissəyə başlamadan öncə, qeyd edilməlidir ki, rəqəmləşdirilmənin mədəni obyektlərə münasibətdə özünün obyektiv yaranan problemləri üzə çıxır.

Bu problemlər:

a) Əlçatmanın genişlənməsi və rəqəmli yaradıcılıq növlərinin əmələ gəlməsi;
b) İnformasiyalı ikili-əkizin kontent olması;
c) Mədəni irs obyektlərinin prototiplərinin çoxmənalı olması.

1. Rəqəmsal texnologiyalar və kompüter şəbəkələri, xüsusən İnternet mədəni irsin populyarlaşmasına, qorunub-saxlanmasına, bərpasına (возрождения) və qorunmasına bənzərsiz imkanlar yaradır (bax: ÜƏMT, «Yaradıcı irs» layihəsi).

- **Çağırışlar:** digitisation mədəni irsin nəsildən-nəslə ötürülməsində bir üslubu kimi mədəni obyektin təbii mahiyyətini özünəməxsusluğunu saxlamaq, orijinalı təhrif etməmək, onun mədəni-tarixi ölçüsünü İstifadəçiyə təqdim etmək tələbləri ilə rastlaşır.
- **Səbəbi:** Clande E. Shannon'dan irəli gələn digitisation'ın «kəmiyyət» xarakterli üslubu, riyaziyyatın birmənalı kəmiyyət vahidlərinin mədəniyyət ifadələrinin çoxmənalı vahidləri ilə ortaq məxrəcə gətirilməsidir (rəqəm şəklində olan informasiya, piksel kimi təqdim olunan obrazlar mədəni obyekti diskret elementlər çoxluğuna,

müvafiq sayda nöqtələr birləşməsinə çevirir və nəticədə forma məzmununda və qiymətindən ayrılır).

- Yaranan çətinliklər getdikcə aradan götürülür, məsələn, Semantic Web texnologiyası (sözlər, onların qiyməti və mənası ilə işləyir, üstəlik mədəniyyət tələb edən mədəni, ərazi, tarixi və interpretasiyalı komponentlərlə də tamamlanır) və ya Fuzzy logic modelləri (çoxmənalı insan dilini qeyri-səlis riyazi ifadələr ilə əvəz etdirir).

2. Digitisation və mədəni, ilk növbədə qeyri-maddi irsin yayılması mədəni obyektlərin (əsərlər, ənənəvi mədəni ifadələr və s.) qeyri-qanuni mənimsənilməsi ilə və haqsız istifadəsinə gətirib çıxarır.

- Bu mədəni obyektlər - əqli mülkiyyətdir, müəllif-hüquq və ya sui-generis qanunvericilik vasitəsilə qorunur.

Virtual aləmdə kontentin dövranı



II. Müasir müəlliflik hüququ rəqəmli mühitdə

1. **Müəllif-hüquq obyektləri kontent kimi (forma və məzmun)**:

❖ «Kontent» - informasiyalı, əhəmiyyətli məzmun, «forma» - kontenti daşıyan konteyner.

❖ Kontentin informasiyalı təbiəti:

müəlliflik hüququ: açıqlanmış informasiyanın tənzimlənməsi, lakin icazəli istifadəsi;

informasiya hüququ: məhdudiyyətlə əldə oluna bilən informasiyanın tənzimlənməsi, lakin sərbəst yayılması.

❖ **«Kontent» termini:** rəqəmləşdirilmiş əsərin məzmununun əhəmiyyətinin artması və formasının əhəmiyyətinin azalması (informasiyalı məzmunun sonsuz klonlaşması, tirajlanması, bölünməsi və s. = formanın dəyişməsi, yenidən işlənmiş əsərlərin yaranması).

2. **Yaradıcılıq və xidmətlərin yeni növləri**:

- fraqmentləşmə - informasiya faylların kiçik hissələrə parçalanması və bunlardan sonsuzluğa qədər yeni formaların yaradılması;

- miksləşmə - bəlli olan məzmunun və ya onun fraqmentlərinin yeni formaya çevrilməsi, o cümlədən filmlərin redaktəsi – müəyyən hissələrin aradan qaldırılması və ya əlavə edilməsi;

- meşaplaşma – audio və video materialların kombinasiyası vasitəsilə yeni audiovizual əsərlərin yaradılması;

- rəqəmli sempləşmə - yeni musiqi səsyazmalarında musiqi əsərlərinin və fraqmentlərinin mənimsənilməsi və yenidən işlənməsi;

- animasiya (multiplikasiya) – statik formaların dinamik və dəyişkən əlamətlərinin verilməsi;

- Web 2.0 əsasında interaktiv mübadilə servislərinin (Vikipediya, Facebook, Myspace) və platformaların (Youtube, Flickr), bloqların (Twitter, P2P, BitTorrent) inkişafı.

3. **Yeni növ yaradıcılıq və xidmətlərin nəticələri:**

- əsərin formasının vahidliyinin, bütövlüyünün və statikliyinin itirilməsi, əvəzinə çoxluğunun, dinamizmin və bölünməsinin əmələ gəlməsi;

- əsərin orijinal olması sərhədinin dəyişməsi və «hüquq sahibi – istifadəçi» tarazlığın pozulması;

- «nüsxə» və «kopya» anlayışlarının mahiyyətinin dəyişməsi və yeni «əldəetmə» anlayışı.

4. **Müstəsna hüquqlar: «olar» və ya «olmaz»**:

ƏM-də müstəsna hüquqlar və maddi dünyada mülkiyyət hüququ.

«İstifadəyə qadağa» - Copyright-da qadağa mexanizmi = «sahiblik» prinsipi mülkiyyət hüququnda işləmir.

Səbəb və nəticələr :

– informasiya maddi dünya obyektlərindən fərqli olaraq özünü aparır (D.Bell, A.Turen, O.Toffler, J.Bodriar, P.Draker);

– dəyər qanununun fərqli işləməsi: informasiya – dəyəri yayılması ilə artan sonsuz resurs, maddi obyektlərin dəyərinin isə defisit olmasından və yaradılmasına əmək xərclərindən asılılığı;

– «müəllif-cəmiyyət» zəncirində vasitəçilik: müəllif-hüquq konsepsiyasının real dəyər və sosial ədalət konsepsiyasından ayrılması;

– ƏM-in şəxsi (insani) xarakterinin korporativ maraqlara yönəlməsi, yaradıcı nəticələrə motivləşmənin zəifləməsi və daha çox ƏM bazarında industriyaların itkilərinin müdafiəsinə işləməsi.

Nəticələr: «Müəllif – Hüquq sahibi – İstifadəçi» sistemində tarazlığın pozulması və ziddiyyətlərin genişlənməsi.

III. "İnternet – Copyright" konfliktinin tərəfləri

1. Maraqların toqquşması:

- **İstifadəçi – Hüquq sahibi**
- **İstifadəçi – Müəllif**

«Copyright – İnternetin açıqlığı» ziddiyyətin əsas daşıyıcıları (konflikt və kompromis nəzəriyyəsi vasitəsilə tənzimlənə bilər)

- **Müəllif – Hüquq sahibi**
- **Hüquq sahibi və Müəllif – Provayder**

} Toqquşmanın dolayısı yolla daşıyıcıları (xüsusi, zəruri yerinə yetirilməsi tələb olunan qaydalar ilə tənzimlənə bilər)

Nəticə: İstifadəçilər, Hüquq sahibləri, Müəlliflər – Konflikt Tərəfləri

IV. Rəqəmli Copyright-a aid praktiki tənzimləmə modelləri və Azərbaycan təcrübəsi

1.

a). Sərbəst istifadəyə məhdudiyyətlər qaldırılmış modellər (CC, Copyleft, Fişer, Dolqin, Kozırev və s. modelləri) təklif edilir və işlənilir və modellərin fərqi hüquq sahiblərinə kompensasiya sistemindədir;

b). Qonorar ödəmək şərti ilə sərbəst istifadə modelləri (məcburi lisenziyalar), o cümlədən kollektiv idarəetmə vasitəsilə təklif edilir və işlənilir;

c). Enforcement-i (Hüquqların Təminatını) sərtləşdirən modellər:

SOPA, PİPA, ACTA - ənənəvi Müəlliflik Hüququnun sərtləşməsinə aid qanunvericilik aktları (müstəsna hüququn qadağa mexanizmi). Qəbul edilməyib, axtarış gedir.

2. **Azərbaycan təcrübəsi.**

- Agentliyin araşdırmaları və bizim Avropanın bir sıra ekspertləri ilə apardığımız birgə tədqiqatlar əsasında üçüncü modelin də tətbiq oluna biləcəyini nəzərdən keçirək: qonorar ödəmək şərti ilə sərbəst istifadə modelləri (məcburi lisenziyalar).
- 3 tərəfin: Müəllif, Hüquq sahibi, İstifadəçi kiberməkanında qurulmuş modeli «maraqları üst-üstə düşməyən» koalision riyazi oyun kimi təsvir olunaraq, kompromis axtarışına yönəldilir və bəlli olur ki, maraqların ən dayanıqlı tarazlığını yaradan sözügedən modeldir.
- Bunun əsasında Agentlikdə rəqəmli hüquqların idarə edilməsi ilə bağlı DRM sistemi qurulub və onun pilot variantı işlənilir.





V. İmplementasiya

1. Qanunverici norma

«Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» Qanunundan çıxarış:

12.4. Müvafiq icra hakimiyyəti orqanı rəqəmsal şəbəkələrdə də müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqlarından istifadəyə nəzarət edir, hüquq sahiblərinin mənafelərinə və iradələrinə uyğun olaraq bu hüquqların kollektiv əsasda idarəçiliyini təşkil edir, hüquqların pozulduğu, o cümlədən hüquqlardan istifadəyə qoyulmuş məhdudiyyətləri təmin edən texniki

müdafiə vasitələrinin qeyri-qanuni dağıdıldığı, eləcə də hüquq sahibinin razılığı olmadan hüquqların idarə edilməsi haqqında informasiyanın ləğvi, yaxud dəyişdirildiyi hallarda müvafiq tədbirlər görür.

2. DRM-sistemi.



DRM-sisteminin məqsəd və təyinatı

- ✓ Rəqəmli kontentin xüsusiyyətlərindən və qeydiyyat, elektron idarəetmə və kommersiya, rəqəmli monitorinq və qeyri-qanuni istifadə hallarının müəyyən edilməsi xidmətlərin təminatına yönəldilən informasiya infrastrukturunun (platformasının) yaradılması.
- ✓ Agentliyin Milli mədəni rəqəmli kontentin Aqreqatoruna çevrilməsi.